# ŞUŞA REGİONUNDA YAYILAN DƏRMAN BİTKİLƏRİ VƏ ONLARIN FAYDALI XÜSUSİYYƏTLƏRİ

**Ramiz Ələkbərov, Günay Nəsirova**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutu,*
*ramiz_alakbarli@mail.ru, gunaynesirova694@gmail.com*

Şuşa öz təbiəti, iqlimi, torpağı, flora və faunası ilə Azərbaycanın digər regionlarından fərqlənir. Bu regionda yayılan aşağıdakı dərman bitkilərinin faydalı xüsusiyyətləri haqqında məlumat vermək məqsədəuyğundur.

*Hippophae rhamnoides* L. – Adi çaytikanı. Tərkibində çoxlu polivitaminlər vardır. Meyvələrindən alınmış şirə və ekstraksiya məhsulları epitel hüceyrəsinin yaranmasında və bərpasında iştirak edir. Müxtəlif iltihablardan yaranan yüksək temperatur zamanı meyvələrindən hazırlanan şirə və püre immunitetin gücləndirilməsi üçün olduqca faydalıdır. Yağı iltihaba qarşı yarasağaldıcı və ağrıkəsici təsir etməklə, epitel toxumalarının yenilənməsində iştirak edir. Eyni zamanda xərçəng xəstəliyinin şüa terapiyası, profilaktika və müalicəsində müvəffəqiyyətlə tətbiq edilir. Bundan başqa, mədə və onikibarmaq bağırsağın xora xəstəliyi, eroziya və kolpitlərində faydalıdır. Yarpaqlarında çoxlu vitamin olduğundan hipo- və avitaminozlarda, dərinin yanıq, donvurma və yaralanmaları zamanı istifadə olunur [1, s. 134-135, 3, s. 225]

*Berberis vulgaris* L. – Adi zirinc. Yarpaqlarından hazırlanan dəmləməsi (1:50) keyfiyyətli iltihabsorucu və ödqovucu dərman kimi qaraciyər, ödyolu xəstəliklərində və daxili qanaxmalarda işlədilir [2, s. 274, 3, 361].

*Thymus serpyllum* L. – Sürünən kəklikotu. Azərbaycan təbabətində yarpaqlarının dəmləmə və məhlulu ürək xəstəliklərində, qəbizlik, qaraciyər xəstəliklərində iltihabsorucu maddə kimi olduqca faydalıdır. Güclü iltihabqovucu (tərkibində timol və karvakrol vardır), qıcolma əleyhinə, sedativ, öskürəkkəsici, ağrıkəsici, yarasağaldıcı və qurdqovucu təsirlərə malikdir. Hipertoniya, ateroskleroz, nevralgiya, radikulit, tireotoksikoz (zob), nevroz, isteriya xəstəliklərində və mədə-bağırsaq spazmında da işlədilir. Ekstraktından "*Pertussin*" adlı öskürəkkəsici və yumşaldıcı dərman hazırlanır [3, s. 289].

*Urtica dioica* L. – İkievli gicitkən. Qanazlığı, arterial hipotenziya, nevroz, isteriya, bronxit, pnevmoniya, bronxial astma, vərəm, iştahsızlıq, ishal, qastrit, enterokolit, epilepsiya və ateroskleroz xəstəliklərində tətbiq edilir. Sidikqovucu və iltihab əleyhinə dərman kimi pielonefrit (böyrəyin irinli iltihabı) və sistitin (sidik kisəsinin iltihabı) müalicəsində istifadə olunur. Ürək-damar xəstəliklərinə müsbət təsir edir. İltihabi proseslərdə 3 xörək qaşığı bitki 2 stəkan qaynar suda (termosda) dəmlənərək, gündə 3 dəfə yeməkdən 20-30 dəqiqə əvvəl qəbul edilir (sutkalıq doza).

*Crataegus monogyna* Jacq. – Biryuvalı yemişan. Təbabət praktikasında müxtəlif məqsədlər üçün istifadə edilir. Çiçək və meyvələrindən dəmləmə ürək zəifləmələrində, kardiotonik maddə kimi ürək döyünməsində (taxikardiya), hipertoniyanın başlanğıc formalarında, yuxusuzluqda, taxikardiya ilə müşayiət olunan hipertireozlarda (zob), xüsusən klimakterik dövrlərdə qan dövranı pozğunluqlarında və aterosklerozda təyin edilir. Meyvələrinin sulu ekstraktından *kardioviolen* adlı preparat alınır [5, s. 188].

*Rubus idaeus* L. – Adi moruq**.** Təzə meyvələri bol vitamin deposudur. Belə ki, alkoqol zəhərlənmələrində, hipermenorreya, hemorreya və dəri səpkilərində istifadə edilir. Meyvələri tərlədici və hərarətsalıcı maddə kimi, yarpaqları isə büzücü dərman vasitəsi kimi ishal və qanaxmalarda işlədilir. Yarpaqlarının dəmləmə və bişirməsi öskürək və anginada sinə yumşaldıcı, yarpaqlarının və çiçəklərinin dəmləməsi isə babasil və qadın xəstəliklərində istifadə edilir [2, s. 133].

*Punica granatum* L. – Adi nar. Meyvələri büzücü xassəli olduğundan, dizenteriya və bağırsaq pozğunluqlarında geniş surətdə istifadə edilir. Şirəsi qanazlığının (anemiya) müalicəsində effektli vasitə hesab olunur. Gövdə və qabıqlarından, kök və qabığının tərkibindəki *izopelleteren* və *metilizo-pelleteren* maddələrindən lentşəkilli qurdların (helmintlər) qovulmasında istifadə edilir.

*Ephedra equisetina* Bunge – Qatırquyruğunabənzər acılıq. Əsasən yerüstü orqanları istifadə olunur. Qan təzyiqi, yoluxucu xəstəliklər və astma tutmalarını nomallaşdırır, bahar qızdırması, övrə və digər allergik xəstəliklərdə istifadə edilir. Revmatizm, malyariya, astma, hipertoniya, mədə-bağırsaq və assit xəstəliklərində işlədilir. Bitkidən alınan *efedrin* ürək-damar sistemini stimullaşdırır və sakitləşdirir. Efedrin dərmanı *efedrin-hidroxlorid* adı ilə buraxılır. Geniş şəkildə allergik xəstəliklər (bronxial astma, övrə, vazomator rinit), narkotik maddələrlə və qanqliotiklərlə zəhərlənmələr zamanı təyin edilir. Bronxların saya əzələlərinin tonusunu azaltdığından, bronxial astma, göyöskürək, asmatik bronxitdə, allergik xəstəliklərdə (bahar qızdırması, övrə, vazomator rinit, serum xəstəliyi), arterial təzyiqin azaldılmasında, müxtəlif infeksiyalar, intoksikasiyalar zamanı, kəskin travmalarda damcı şəklində damargenişləndirici və iltihabsorucu vasitə kimi istifadə olunur [3, s. 487].

**Ədəbiyyat:**


1. Dəmirov İ.A., İslamova N.A., Kərimov Y.B., Mahmudov R.M. Azərbaycanın müalicə əhəmiyətli bitkiləri. Bakı: Azərnəşr, 1988, 175 s.
2. Əliyev N. Azərbaycanm dərman bitkiləri və fitoterapiya. Bakı: Elm, 1998, 343 s.
3. Səyyarə İbadullayeva, Ramiz Ələkbərov. Dərman bitkiləri (*Etnobotanika və Fitoterapiya*) Medicial plants (*Ethnobotany* and *Phytoterapya*). Bakı: Təhsil-Elm, 2013, 331 s.
4. Гаммерман А.Ф. Дикорастущие лекарственные растения СССР. М.: Мед, 1976, 288 с.
5. Ибадуллаева С.Д. Интродукция некоторых пряно-ароматических растений. Материалы X международного симпозиума «Нетрадиционное растениеводство. Эниология. Экология и здоровье», Симферополь, 2001, с. 272.